Ədəbiyyat QƏZETİ

# Canavar dişi

## İkihissəli qəhrəmanlıq dramı



İFTİXAR

*(Əvvəli ötən saylarımızda)*

### İKİNCİ HİSSƏ

***İştirak edirlər:***

*Azərbaycan əsgəri*
*Erməni əsgəri*
*Südəmər körpə*
*Komandir*
*Qadın*
*Muzdlu zənci zabit*
*Muzdlu zənci əsgər*

**Komandir:** - Al, satqın!.. *(gülləni erməni əsgərinin başına sıxır. Erməni əsgəri qışqıraraq dik atılır. Başı üzərində Azərbaycan əsgərini görür.)*

**Azərbaycan əsgəri:** - Sayaqlayırdın...

**Erməni əsgəri:** - *(tangnəfəs halda Azərbaycan əsgərinə)* Sən məni vurdun?!. Mən yaralıyam?!.

**Azərbaycan əsgəri:** - Heç kəs səni vurmayıb, sən sadəcə yuxu görürdün... sayaqlayırdın... Komandirinə yalvarırdın...

*Erməni əsgəri körpəyə tərəf çevrilir.*

**Erməni əsgəri:** - Sən dünyanın ən gözəl nemətisən... Həyat deyilən şey sənsən... Üzündən-gözündən nur tökülür...

*Günəşin şüaları ağacların arasından süzülərək hər üçünü nura qərq edir.*

**Azərbaycan əsgəri:** - Dur, günəş doğur...

*Erməni əsgəri ağacın oyuğundan çölə baxır.*

**Erməni əsgəri:** - Canavarlar yoxdu. Gedibilər... Dedim axı, onlar gündüz gizlənirlər. Amma yox, biri qalıb. *(canavara)* Həə, demək, sən hələ də ümidlisən ki, dişin mütləq qana batacaq?.. Onu görməyəcəksən.

**Azərbaycan əsgəri:** - O canavar tək deyil...

**Erməni əsgəri:** - Təkdi, gəl bax... başqası yoxdu...

**Azərbaycan əsgəri:** - O tək deyil...

**Erməni əsgəri:** - Görmürsən, təkcənədi?..

**Azərbaycan əsgəri:** - Canavarların taktikası belədi. Hamısı pusquya çəkilir, biri ovunun qarşısından qaçmağa başlayır, ovu canavarın qaçdığını görcək, onu qovur. Canavar ovu sürünün mühasirəsinə qədər dərinliyə aparır və tən ortada dayanır. Ov ona çatar-çatmaz sürü pusqudan çıxır və üzük qaşı kimi ovu mühasirəyə alır. Bununla da ovun işi bitir.

**Erməni əsgəri:** - Deyirsən ki, canavarlar o qədər ağıllıdı?

**Azərbaycan əsgəri:** - *(eyhamla)* Yırtıcıların hamısı ağıllı olur...

**Erməni əsgəri:** - Heç olmasa, bu anda eyhamla danışma... Nə edəcəyimizi düşünək.

**Azərbaycan əsgəri:** - Sən deyirdin ki, mənim səndən öyrənəcəyim çox şey var, demək ki, məndən ağıllısan, sən bir yol göstər... Nə edək?..

**Erməni əsgəri:** - Məncə, biz canavarı qovmalıyıq...

**Azərbaycan əsgəri:** - Mühasirəyə düşsək?..

**Erməni əsgəri:** - Ola bilsin ki, bu canavar doğrudan da tək qalıb, axşama qədər bizi burada saxlamaq üçün. O birilər isə çəkiliblər dincəlməyə. Axşam yenə də gələcəklər...

**Azərbaycan əsgəri:** - Ola da bilər... Amma mən inanmıram... Bu üsul canavarlara xas deyil. Əgər elə olsa, birazdan sakitcə növbə dəyişməlidi... Gözləyək görək növbə dəyişəcəkmi...

**Erməni əsgəri:** - Yox, biz onu gözləyə bilmərik...

**Azərbaycan əsgəri:** - Təklifin nədi?

**Erməni əsgəri:** - Hərəmiz iki odun parçası götürək, yolumuza çıxaq, əgər canavar təkdirsə, sürünü xəbərdar eləmək üçün ulayacaq, tək deyilsə, bizi tələyə çəkmək üçün sakitcə qaçmağa başlayacaq. Ulasa, işimiz asanlaşır, demək ki, canavarlar uzaqdadı, qaçmağa başlasa, biz onun qaçdığının əks istiqamətinə tərəf qaçarıq. Yenə də canavarlar uzaqda qalacaqlar. Qar da dizə çıxır, hər iki halda canavarlar bizə yetənə qədər biz bir tərəfə çıxarıq...

*Hər ikisi qucaqlaşıb bir an sükut edirlər. Sonra Erməni əsgəri hər əlinə bir odun parçası götürüb canavara tərəf gedir. Bir neçə addımdan sonra geri dönüb səslənir.*

**Erməni əsgəri:** - Salamat qal, süd qardaşım!..

**Azərbaycan əsgəri:** - Uğur olsun, süd qardaşım!..

**Erməni əsgəri:** - *(körpəni nəzərdə tutaraq)* Salamat qal, qəhrəman!..

*Canavar ulaya-ulaya, axsaq yerişlə astaca qaçmağa başlayır. Erməni əsgəri canavarın əks tərəfinə doğru start götürür. Bu dəmdə canavar sürüsünün əks tərəfdən irəlilədiyi görünür. Erməni əsgəri dayanır. Anlaşılmaz vəziyyət yarandığını görür. Geri qaçmaq istəyir. Yenə də dayanır, döyüşə hazır vəziyyət alır.*

**Azərbaycan əsgəri:** - Durma, qaç, geri qaç!.. Tez ol!.. Niyə donub qalmısan, qaç deyirəm!.. Qaç, yaramaz erməni!.. Qaç əclaf, qaç!.. Bizi canavarların dişinə yem eləmə, qaç!..

*Erməni əsgəri odun parçasını əlində sahmanlayaraq yerini daha da bərkidir. Azərbaycan əsgəri canavarların yaxınlaşdıqca mühasirə yaratdıqlarını görür, dərhal hər əlinə bir odun parçası götürüb özünü erməni əsgərinin yanına çatdırır. Onlar kürək-kürəyə söykənirlər və qollarını geniş açaraq canavarların yetişməsini gözləyirlər.*

**Azərbaycan əsgəri:** - Niyə qaçmadın?..

**Erməni əsgəri:** - Qaçmaq qorxaqlıqdı...

**Azərbaycan əsgəri:** - İgidlik ondusa, doqquzu qaçmaqdı, ay erməni...

**Erməni əsgəri:** - Bəs onda qorxaqlıq nədi?.. Qorxaqları quduzlar da sevmir... Həm də tez tələyə salırlar... Qorxmazdan isə quduzlar da qorxur...

**Azərbaycan əsgəri:** - Biz onlara heç nə eləyə bilməyəcəyik... Gizlənmək lazımdı... Gözümüz görə-görə ölümə gedirik...

**Erməni əsgəri:** - Nə vaxta qədər gizlənəcəyik?..

**Erməni əsgəri:** - Söz ver mənə...

**Azərbaycan əsgəri:** - Hazırlaş...

**Erməni əsgəri:** - *(tələsərək)* Tez ol, söz ver... Xahiş edirəm...

**Azərbaycan əsgəri:** - Söz verirəm... Amma biz bunu səninlə bir yerdə deyəcəyik...

**Erməni əsgəri:** - Sağ ol ki, söz verdin... İçim rahat oldu... Bu körpənin adını Qəhrəman qoyarsan...

**Azərbaycan əsgəri:** - Oldu... Üç...

*Qoşa güllə səsi eşidilir. Sıçrayışda olan iki canavar zingildəyərək qarın üstünə sərilir. Azərbaycan əsgəri ilə erməni əsgərinin zərbələri bir-birinin odun parçasında birləşir. Dərhal ikinci qoşa güllə səsi eşidilir. Növbəti iki canavar zingildəyərək qarın üstünə sərilir. Digər canavarlar güllə səsinin vahiməsindən təlaşla qaçmağa başlayırlar. Üçüncü qoşa güllə səsinə sonuncu iki canavar qar üstünə sərilir. Azərbaycan əsgəri ilə erməni əsgəri çaşqın halda ətraflarına boylanırlar. Bir neçə güllə səsi daha eşidilir.*

**Azərbaycan əsgəri:** - Gülləleri kim atır?

**Erməni əsgəri:** - Yəqin bizim snayperlərdi...

**Azərbaycan əsgəri:** - Nə, sizinkilər?..

*Azərbaycan əsgəri qaçmaq istəyir. Erməni əsgəri onun kürəyindən qucaqlayır və hər ikisi qarın içinə batırlar. İki nəfər erməni əsgəri qaçaraq onlara tərəf gəlir.*

**Azərbaycan əsgəri:** - Bəs körpə?

**Erməni əsgəri:** - Körpəni növbə ilə daşıyarıq...

**Azərbaycan əsgəri:** - Qaçdığımız tərəfi müəyyən eləməsəm, mən getməyəcəm, sən istəsən gedərsən...

**Erməni əsgəri:** - Bəs nə eləyəcəksən?

**Azərbaycan əsgəri:** - Allahı çağıracam...

**Erməni əsgəri:** - Axmaq müsəlman...

**Azərbaycan əsgəri:** - Körpənin ruzusunu göndərən Allah onun xilas yolunu da mütləq göndərəcək...

**Erməni əsgəri:** - Onda mən getdim, siz salamat qalın.

**Azərbaycan əsgəri:** - Get... yaxşı yol...

**Erməni əsgəri:** - *(körpəyə yaxınlaşır)* Gəl görüşək, balaca dost... Qəhrəman... Sən dünyada ən qiymətli insansan!.. *(əyilib yanağından öpür, Azərbaycan əsgərinə tərəf çevrilir)* Əmin ol ki, mənim üçün müharibə bu gecə, bu körpənin qığıltısında, təbəssümündə sona yetdi... Sağ qalsam, imkan tapıb bir yolla mütləq sizinkilərə sizin haqqınızda məlumat göndərəcəm...

**Azərbaycan əsgəri:** - Burdan sağ-salamat qurtara bilsəm, hökmən Tiflisdə səni tapacam.

**Azərbaycan əsgəri:** - Yol tapana qədər...

**Erməni əsgəri:** - Yolumuz budu... Bərabər döyüşmək...

**Azərbaycan əsgəri:** - Onda möhkəm ol!..

**Erməni əsgəri:** - Hesabla canavarlar o biri tərəfdən gəlməli idilər, amma tam qarşıdan peyda oldular. Bu, ağlasığmazdı...

**Azərbaycan əsgəri:** - Yəqin bu, onların naməlum taktikasıdı.

**Erməni əsgəri:** - Dünən onlardan çox qorxmuşdum, bu gün heç qorxmuram.

**Azərbaycan əsgəri:** - Niyə?

**Erməni əsgəri:** - Çünki kürəyimdə sən varsan.

**Azərbaycan əsgəri:** - Çatırlar, hazır ol. Eyni vaxtda zərbə endirək. Üçə qədər sayıram, üçdə dərhal vururuq.

**Erməni əsgəri:** - Sən sağdan, mən soldan...

**Azərbaycan əsgəri:** - Bəs sənin sağın-solun bəlli deyildi...

**Erməni əsgəri:** - İndi bəllidi...

**Azərbaycan əsgəri:** - Niyə?

**Erməni əsgəri:** - Çünki kürəyimdə sən varsan...

**Azərbaycan əsgəri:** - Bir...

**Erməni əsgəri:** - Altı canavar var, elə vurmalıyıq ki, birincidən hərəmizin zərbəsi ikisini tutsun, yoxsa çətin olacaq...

**Azərbaycan əsgəri:** - Çalışaram...

**Erməni əsgəri:** - İşdi mən ölsəm, sən qalsan, Tiflisdə bizimkiləri tap. De ki, mən müharibə deyiləm... Mən insanam... müharibədən bezən insan...

**Azərbaycan əsgəri:** - İnşallah, sən özün deyəcəksən...

**Erməni əsgəri:** - De ki, bu bizim savaş deyil... De ki, mən belə deyirdim...

**Azərbaycan əsgəri:** - İki...

**Azərbaycan əsgəri:** - *(çabalayaraq onun qolları arasından çıxmağa çalışır)* Burax məni, əclaf...

**Erməni əsgəri:** - Qorxma, qaçma...

**Azərbaycan əsgəri:** - Burax deyirəm... burax məni, xain erməni... Burax məni, mən onlara əsir düşmək istəmirəm...

**Erməni əsgəri:** - Qorxma, qoymaram onlar sənə toxunsunlar...

**Azərbaycan əsgəri:** - Yalan deyirsən, gərək mən səni canavarlarla baş-başa qoyaydım, burax məni...

*Əlində snayper tüfəngi tutmuş, erməni hərbi geyimində olan iki qaradərili hərbçi qaçaraq onlara tərəf gəlir.*

**Azərbaycan əsgəri:** - Bu nədi əəə, onlar ki, zəncidilər...

**Erməni əsgəri:** - Onlar muzdlu döyüşçülərdi.

**Azərbaycan əsgəri:** - Lənətə gələsiniz sizi... Gör bir biz kimlərlə vuruşuruqmuş... Ruslar bəs eləmirdi?.. Biz bütün dünya ilə vuruşuruqmuş ki...

**Erməni əsgəri:** - Sakit ol...

**Azərbaycan əsgəri:** - Sən onları necə başa salacaqsan?

**Erməni əsgəri:** - Onlar erməni dilini öyrənmiş zəncilərdi...

**Azərbaycan əsgəri:** - Gör bir nələr varmış dünyada, a sənə qurban olum, Allah... Bəs sənin bunlardan xəbərin yoxdu? Biz sənin yanında hansı günahın sahibiyik ki, bizi bu dərdə salırsan, ay Allahım?!

**Erməni əsgəri:** - Sakit ol... Danışma...

*Zənci hərbçilər onlara yetişirlər. Onlardan biri erməni dilində soruşur.*

**Muzdlu zənci:** - Əllər yuxarı... Kimsiniz?.. Durun ayağa...

**Erməni əsgəri:** - *(əllərini qaldıraraq ayağa qalxır)* Mən ikinci alaydanam... Ləqəbim Kobradı... Komandirin müaviniyəm.

**Muzdlu zənci zabit:** - Hə, tanıdım... O biri kimdi?

**Erməni əsgəri:** - O da bizimkilərdəndi...

**Muzdlu zənci zabit:** - Vaxtında yetişdik. Yoxsa canavarlar ikinizi də parçalayacaqdı... Amma o biri tərəfdə biri də vardı. *(barmağı ilə qoca palıdın səmtini göstərir)* bir neçə güllə atdıq, vura bilmədik. Ağacların arasında itdi. Dişində bükülü nə isə aparırdı...

*Azərbaycan əsgəri cəld yerindən sıçrayır, bağıraraq ağaca tərəf qaçır.*

**Azərbaycan əsgəri:** - Körpə getdi... Canavar körpəni apardı...

**Muzdlu zənci zabit:** - Bu ki düşməndi? *(arxasınca atmaq istəyir)*

**Erməni əsgəri:** - *(onun silahından yapışır)* Atma.

**Muzdlu zənci zabit:** - O düşməndi... Sən düşməni qoruyursan?

**Erməni əsgəri:** - O bizim agentimizdi. Mən onunla burada məlumat almaq üçün görüşmüşəm. Onunla işiniz olmasın.

**Muzdlu zənci zabit:** - Biz onu aparacağıq. Ona görə mənim beş yüz dollar mükafatım var. Gerisini sizinkilər bilər.

**Erməni əsgəri:** - Ona görə mükafat olmayacaq, çünki o agentdi...

**Muzdlu zənci zabit:** - Sənin üçün agentdi, mənim üçün əsir.

**Erməni əsgəri:** - *(bağıraraq onun silahından yapışır, əlindən almağa çalışır)* Dedim ki, onunla işiniz olmasın!

**Muzdlu zənci zabit:** - Silahı burax...

**Erməni əsgəri:** - Söz ver...

**Muzdlu zənci zabit:** - Sənə dedim ki, silahı burax...

**Erməni əsgəri:** - Əvvəlcə söz ver...

*Erməni əsgəri ilə Muzdlu zənci zabit əlbəyaxa olurlar.*

**Muzdlu zənci əsgər:** - *(qışqıraraq erməni əsgərinin arxasından çəkib yerə yıxır)* Silahı burax deyildi, murdar!

*Erməni əsgəri arxası üstə yerə sərilir. Muzdlu zənci zabit onun qarnının üstündə oturur, boğazından yapışıb boğmağa çalışır. Erməni əsgəri Muzdlu zənci zabitin qollarından yapışıb xilas olmaq istəyir. Azərbaycan əsgəri ağacın oyuğundan içəriyə baxıb geri çevrilərkən, bütün bu gərgin mənzərəni görür və cəld özünü onlara çatdırır. Əlindəki odun parçası ilə Muzdlu zənci əsgərin başının arxasından zərblə vurur. Muzdlu zənci əsgər yerə sərilir. İkinci zərbəni Muzdlu zənci zabitin alnına vurur. O da yerə sərilir. Erməni əsgərini çəkib yerdən qaldırır.*

**Azərbaycan əsgəri:** - Qalx... Əclaf uşağı, əclaf... Hardan gəlib, harda qoçuluq eləyirlər...

**Erməni əsgəri:** - Sağ ol, tam zamanında yetişdin, az qala boğulurdum...

**Azərbaycan əsgəri:** - Sənə deyirdim ki, onlara lazım gələndə əzib keçirlər... Bu da bu...

**Erməni əsgəri:** - *(Muzdlu zənci zabitin cəsədini təpiklə vurur)* İt oğlu... Qolunun qüvvətinə bax. Gücüm çatmırdı.

**Azərbaycan əsgəri:** - Niyə savaşırdınız?

**Erməni əsgəri:** - Səni aparmaq istəyirdilər. Etiraz elədim, ona görə...

**Azərbaycan əsgəri:** - Əclaflar... Canavar körpəni aparıb.

**Erməni əsgəri:** - *(cəld yerdən snayper silahları götürür, birini Azərbaycan əsgərinə verir. Bağıraraq)* Getdik!

**Azərbaycan əsgəri:** - Hara?

**Erməni əsgəri:** - Körpəni canavarın dişindən almağa!

*Onlar canavarın izinə düşərək gözdən itirlər.*

**Son**

*Bakı-Truskavets*
*05 iyul-05 avqust 2014*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 9 sentyabr.- S. 29.